

# Azərbaycanı qüdrətli dövlətə çevirən siyasi kursun başlandığı tarix

Azərbaycanın müstəqillik dövrünün ən mühüm siyasi hadisələrindən biri olan Milli Qurtuluş Gününün 30-cu ildönümü tamam olur. 30 il əvvəl yaranan bu tarix xalqımızın Ulu Öndəri Heydər Əliyev tərəfindən güclü və müstəqil dövlətçiliyimizin, tarixin ən qüdrətli Azərbaycanının etibarlı və sarsılmaz bünövrəsinin qoyulduğu gündür. Başqa cür desək, 1993-cü ilin Milli Qurtuluşu bugünkü bütün nailiyyətlərimizin başlandığı gündür.



1993-cü ilin ağır, keşməkeşli və faciəli iyun günlərini yaxşı xatırlayırıq. Hakimiyyətdə olan qüvvələrin idarəçilikdəki kobud səhvlərinin nəticəsi olaraq bir tərəfdən torpaqlarımız Ermənistan tərəfindən işğal olunur, digər tərəfdən də sapı özümüzdən olan baltaların dəstəyi ilə respublikamızda separatçılıq güclənirdi. Bunlarla yanaşı, ölkəni xaos və anaxiya bürümüşdü, faktiki olaraq hakimiyyətsizlik idi. Bütün bunlara görə hələ kövrək olan müstəqilliyimiz və dövlətçiliyimiz məhv olmaq təhlükəsi ilə üzləşmişdi. Xalqımız Azərbaycan Xalq Cümhuriyyətinin iflas aqibətini yaşamağa son dərəcə yaxın idi.

Gəncədə baş verən silahlı toqquşma və qardaş qırğının törədilməsi isə cəmiyyətimizin mənəvi sarsıntısına səbəb olmuşdu. Həmin günlərdə kulminasiya nöqtəsinə çatan hərbi-siyasi proseslər, əslində, hakimiyyəti hərbi yolla ələ keçirən AXC-Müsavat qaragüruhunun ilk vaxtdan yürütdüyü yarıtmaz siyasətin məntiqi nəticəsi idi. Hansı ki bu siyasi qaragüruhun milli xəyanəti nəticəsində 1992-ci ilin may ayında Şuşa və Laçın işğal olunmuşdu. Təbii ki, milli xəyanət üzərindən hakimiyyəti ələ keçirən bu qruplaşmadan xalqımızın aydın sabahı və xoşbəxt gələcəyi baxımından uğurlu fəaliyyət gözləməyə dəyməzdi. Baş verənlər həm də göstərirdi ki, dövlət və müstəqillik anlayışları AXC-Müsavat cütlüyünə yaddır.

Həmin dövrdə dövlətimizin taleyinə biganə qala bilməyən insanlar, ziyalılar, sosial və siyasi statusundan asılı olmayaraq sağlam mövqeyi olan hər kəs bütün bunları görür və Azərbaycanın gələcəyi üçün dərin narahatlıq keçirirdilər. Bu mənada hələ 1992-ci ilin noyabr ayında görkəmli dövlət xadimi, Naxçıvan Ali Məclisinin Sədri Heydər Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyasının yaranması Azərbaycanın taleyinə biganə qala bilməyən insanların ortaya qoyduqları siyasi iradənin göstəricisi idi. Elə buna görə də 1993-cü ilin təlatümlü iyun ayında, uçurum qarşısında qaldığımız ağır günlərdə sabaha olan ümidlərimiz tükənməmişdi. Çünki Heydər Əliyev faktoru vardı. Bu böyük şəxsiyyətin rəhbərliyi ilə dövlətimizin və müstəqilliyimizin xilas olacağına, hərbi-siyasi böhranın, anarxiyanın, separatizmin başa çatacağına olan inam bütün cəmiyyətimizi birləşdirən həqiqət idi. Ona görə ölkədəki hərc-mərcliyin, hərbi-siyasi çəkişmələrin, vətəndaş qarşıdurmasının və bütövlükdə dövlətimizin xilası üçün bütün xalq Heydər Əliyevin Naxçıvandan Bakıya gəlməsini arzu edirdi. Hətta 1992-ci ilin oktyabr ayında Heydər Əliyevə qarşı təxribata cəhd edən AXC-Müsavat güruhu da çıxış yolunu məhz Heydər Əliyev faktorunda görürdü.

Dövlətimizin taleyi üçün dərin narahatlıq keçirən Ulu Öndər Heydər Əliyevin 1993-cü il iyunun 9-da Bakıya gəlişi proseslərin tamamilə fərqli məcrada cərəyan etməsinə səbəb oldu. Yaxşı yadımızdadır ki, Heydər Əliyevin gəlişi ilk növbədə mənəvi sarsıntılara, bədbinliyə son qoydu və cəmiyyətdə yüksək əhvali-ruhiyyəyə yol açdı. Hər kəs sevinirdi, bilirdik ki, Heydər Əliyevin gəlişi ilə bütün iztirablar başa çatacaq və belə də oldu. Çünki Heydər Əliyev kimi siyasət nəhəngi, zəngin idarəçilik təcrübəsi olan bir insan üçün həlli mümkün olmayan heç nə yox idi. İlk gündən xilaskarlıq missiyasını qətiyyət və cəsarətlə yerinə yetirən Heydər Əliyevin öz həyatını təhlükəyə ataraq Gəncəyə səfər etməsi, müdrik dövlət xadimi kimi qarşıdurma tərəfləri ilə danışıqlar aparması vətəndaş qarşıdurmasının və yeni faciələrin baş verməsinin qarşısını aldı, vəziyyətin sabitləşməsini təmin etdi.

1993-cü il iyunun 15-də Heydər Əliyevin Ali Sovetinin Sədri seçilməsi ölkədəki bütün siyasi qrupların bu böyük şəxsiyyətə olan inamının göstəricisi, ən əsası xalqın arzusularının ifadəsi idi. Ulu Öndərin Ali Sovetinin Sədri seçilməsi ilə Azərbaycanın təhlükə və böhranlardan qurtuluşunun təməli qoyuldu. Bu qayıdışla Azərbaycanın müstəqilliyini istəməyən, dövlətçiliyimizin məhv olmasını arzulayan bütün antimilli qüvvələrin planları iflasa uğradıldı. Bu qayıdışla Azərbaycanı qüdrətli dövlətə çevirən Heydər Əliyev siyasi kursu başladı. 15 iyun tarixi isə təqvimə Milli Qurtuluş Günü kimi həkk olundu.

Aradan illər ötdükcə, zaman kəsiyi uzandıqca, Azərbaycan daha da gücləndikcə, inkişaf etdikcə Heydər Əliyevin o ağır dövrdə gördüyü işlərin mahiyyətini, məzmununu, Ulu Öndərin həmin mürəkkəb şəraitdə hansı çətinliklərə qalib gəldiyini daha dərindən anlayırıq. Ona görə xalqımız Milli Qurtuluş Gününü hər zaman böyük ehtiramla qarşılayacaq, Ulu Öndərimiz Heydər Əliyevin əziz xatirəsini daim sevgi ilə yad edəcək.

İndi Azərbaycan öz tarixinin ən qüdrətli dövrünü yaşayır. Heydər Əliyev yolunu qətiyyətlə davam etdirən, Ulu Öndərin ideyalarını layiqincə həyata keçirən möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə tariximizin şərəfli səhifələri yazılır. 44 günlük Vətən müharibəsində qazanılan qələbə, ərazi bütövlüyümüzün bərpası, Azərbaycanın beynəlxalq birlikdə nüfuzlu dövlətə çevrilməsi və bu kimi uğurlarımız hər birimizin qürur mənbəyimizdir. Bu uğurlarımız həm də onu göstərir ki, Ulu Öndər Heydər Əliyevin qurduğu, möhtərəm Prezident İlham Əliyevin tarixinin ən qüdrətli mərhələsinə yüksəltdiyi Azərbaycan artıq qarşısında dayanan bütün hədəflərə çata bilən dövlətdir.

***Müşfiq MƏMMƏDLİ,***
***Milli Məclisin deputatı***

Azərbaycan.- 2023.- 15 iyun.- S.16.